

# Qurbanlıq heyvanlar fərqli qiymətə...

*Qurban bayramına sayılı günlər qalıb. Ötən ildən fərqli olaraq, bu il qurbanlıq heyvanları hətta onlayn qaydada almaq mümkün olsa da, artıq yol kənarlarında qurbanlıq heyvanların satışına başlanılıb. Qiymətlər isə heyvanların çəkisinə görə dəyişir. Əslən Beyləqan rayonundan olan Mehdi Abdürrəhmanov artıq on ildən çoxdur ki, Bakıya qurbanlıq heyvan gətirib satdığını söyləyir.* Səh.12


# UNİKAL

№38 (1977) 10 avqust 2019-cu il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev   www.unikal.org   unikal-1@mail.ru




# Cahangir Əsgərovun 400 milyon dollarlıq borcu

## "Silk Way Holding"in Beynəlxalq Banka olan bu borcunu ödəyib-ödəmədiyi məlum deyil

*Ötən il yerli KİV "Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) prezidenti Cahangir Əsgərovun ailə şirkəti - "Silk Way Holding"in külli miqdarda borcundan yazırdı. Yazılanlardan belə məlum olurdu ki, adıçəkilən holdinq qurulduqdan sonra Beynəlxalq Bankdan 400 milyon dollar kredit götürülüb.*

*Ehtimal edilirdi ki, adıçəkilən bankın hazırda həbsdə olan keçmiş rəhbəri Cahangir Hacıyevin zamanında digər vəzifəli şəxslərin şirkətlərinə, himayələrindəki iş adamlarına verilən yüz milyonlarla manatlıq kredit kimi, bu halda da hər hansı girov tələb olunmayıb, sadəcə, AZAL prezidentinin adaşından xahişi 400 milyon dolların "Silk Way Holding" ayrılması üçün kifayət edib.*

Səh.9

Səh.8



# Ermənistan rəhbərliyi yeni təxribat oyununa başlayıb

## "Siyasət şou-biznesə bənzəməyə başlayıb"



*Son bir neçə ili əvvəlki dövrlərlə müqayisə etsək, ictimai-siyasi proseslərdə bir süstlüyün yarandığını demək olar. Doğrudur, siyasi partiyalar sosial şəbəkələr müstəvisinə keçərək fəaliyyətlərini davam etdirirlər, amma əvvəlki aktivlik müşahidə olunmur. "Unikal" qəzetinə müsahibə verən AXCP-dən ayrılaraq eyni adlı siyasi təşkilat yaradan Razi Nurullayevlə də söhbətimiz bu mövzu ətrafında oldu.* Səh.4

## Ceyhun Bayramovun biganə qaldığı tükürpədici rəqəm



*Maddi çətinliyi ucbatından təhsil ala bilməyən tələbələrin təhsildən imtina etməsi son günlər ciddi müzakirə mövzusuna çevrilib. Müzakirələr Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsinin dekanı Mahirə Nağıqızı özünün sosial şəbəkə hesabındakı paylaşımından sonra başlayıb. Dekan 2 tələbəsinin təhsil haqqını ödəyə bilmədiyi üçün qəbul olunduğu magistr dərəcəsindən imtina etdiyini yazıb...* Səh.5

## Xaricdə imtahansız təhsil vəd edən universitetlərin diplomu tanınacaqmı?



*Artıq indidən sosial şəbəkələrdə xaricdə imtahansız ali təhsil elanlarının sayı artıb. Həmin elanlarda, qəbul imtahanlarında uğursuz nəticə göstərənlərə xaricdə təhsil almaq imkanı vəd edilir. Qeyd edək ki, Dövlət İmtahan Mərkəzi 2019/2020-ci tədris ili üçün Azərbaycanın ali təhsil müəssisələrinə yerləşdirmənin nəticələrini elan edib.* Səh.11